# BƏHLUL BEHCƏT ƏFƏNDI: ƏDƏBIYYAT TARIXINDƏ DIN ALIMI KIMI MÜSTƏSNA ROLU

Hicran BABAYEVA[*]
Fatma MƏCİDOVA[**]**

**Xülasə:** İslam dini yaranandan və yayılandan bəri din alimlərinin bu sahədə müstəsna rolu olub. Müxtəlif cəmiyyətlərdə və müxtəlif mədəniyyətlərdə dini təlimlərin yayılmasında, həm də əxlaqın, ədalətin qorunmasında bu cür alimlərin təsir gücü böyükdür. Din alimləri, xüsusilə İslamda, bir neçə sahədə müstəsna rol oynamışlar. Bu məqalədə belə alimlərdən biri kimi tanınan Bəhlul Mustafa oglu Əfəndiyev haqqında, onun din tarixində oynadığı müstəsna roldan danışılır. Ədəbiyyat tarixində Bəhlul Behcət kimi tanınan dinşünas alim dini elmləri öyrənən və öyrədən bir şəxs kimi fəaliyyət göstərmişdir. O, demək olar ki, həyatının bir çox illərini Quranı, hədisləri, fiqh elmini öyrənməyə həsr etmişdir. Bəhlul Əfəndi hər zaman insanlaın doğru dini anlayışlara sahib olmasına kömək etmişdir.
***Açar Sözlər:*** *Din Alimi, Bəhlul Behcət, Dini Dəyərlər, İslam Dini, Təşrih və Mühakimə*

**Bahlu Behjat Efendi: His Unique Role as A Religious Scholar In The History Of Literature**

**Abstract:** Since the emergence and spread of Islam, religious scholars have played an exceptional role in this field. The influence of such scholars in the spread of religious teachings in various societies and cultures, as well as in the protection of morality and justice, is great. Religious scholars, especially in Islam, have played an exceptional role in several fields. This article talks about Bahlul Mustafa oglu Efendiyev, who is known as one of such scholars, and the exceptional role he played in the history of religion. The religious scholar, known as Bahlul Behjat in the history of literature, worked as a person who studied and taught religious sciences. It can be said that he devoted many years of his life to studying the Quran, hadiths, and the science of jurisprudence. Bahlul Efendi always helped people to have correct religious understandings.
***Keywords:*** *Religious Scholar, Bahlul Behjat, Religious Values, Islamic Religion, Commentary and Judgment*

## Giriş

Yaşadığı Zəngəzur qəzasında əxlaqi və mənəvi dəyərləri cəmiyyətə təbliğ edərək, insanları düzgün davranışlara yönləndirirmişdir. O, insanları ədalətli, mərhəmətli, və düzgün yaşamağa təşviq edənlərədən biri olmuşdur. Bəhlul Behcət, XIX əsrdə yaşamış tanınmış islam alimi, dinşünas və mütəfəkkir idi. Onun adı Azərbaycanda və Türkiyədə dini- fəlsəfi düşüncələri ilə İslam aləminə verdiyi töhfələrlə yadda qalır. Şərq ədəbiyyatını və dillərini gözəl bilən, Şərq tarixini lazımı qədər mənimsəyən ədibin bizə gəlib çatan əsərləri onun görkəmli islamşünas alim olduğunu göstərir. Ümumiyyətlə, XX əsrin I yarısında Azərbaycanın ilahiyyatçı alimləri arasında Bəhlul Behcətin xüsusi yeri vardır. Türkiyədə dini təhsil almış və İstanbula, İsfahana gedərək Şərq mədəniyyətini bütün incəlikləri ilə mənimsəməyə çalışan ədib dini görüşləri ilə dövrünün ədibləri ilə polemikaya girmişdir. Həmin səfərlərin və aldığı təhsilin nəticəsində o, qənaətlərini həmişə yazıya gətirmək məqsədində olmuşdur.

## 1. Təşrih və Mühakimə Əsəri

Din alimi olaraq şübhəsiz ki, bu mövzuda o, bir çox əsərlər yazmışdır.Təəssüf ki, Bəhlul Bəhcətin dini mövzuda yazdığı bir əsərindən başqa, qalan əsərləri itib-batmış, günümüzədək gəlib çıxmamışdır. Bunun ən başlıca səbəbi repressiya illərinin doğurduğu fəlakətlərdi. B.Behcətin də əsərləri repressiya yaşadı.“Miet-u Yevm (Yüz Gün)”, “Sıffin Vakıaları”, “Mirasla İlgili Bir Risale”, “İr-şad-ı Hamzevî”, “Azerbaycan Eserleri”, “Tevhid Kelimesinin Ha-rekeleri”, “Demokrasî”, “İtidal” və s. əsərləri bunun nümunəsidir. “Təşrih və mühakimə” əsəri isə Türkiyə və İran nəşri nəticəsində bizə gəlib çatmışdır. “B.Bəhcətin nəvəsi Hacı Həmdullah Əfəndiyev sayəsində bu kitab geniş ictimaiyyətə çatdırılmışdır. Onun verdiyi bilgiyə görə, həmin kitabı Azərbaycan İslam Universitetinin rektoru Hacı Sabir Həsənli ona vermişdir. Beləliklə, o, Tehran variantını əldə etmiş və 2010-cu ildə «Ali

---

[*] Xarici dil və ədəbiyyat kafedrasının baş müəllimi, Bakı Avrasiya Universiteti, hicran.babayeva@baau.edu.az
[****] Filologiya üzrə fəlsəfə doktoru, dos. Bakı Avrasiya Universiteti, mecidova.fatma @baau.edu.az

Məhəmmədin tarixi» adı ilə nəşr etdirmişdir. Hacı Həmdullah Əfəndiyevin etdikləri böyük qədirşünaslıq işidir. Kitabın tərtibatında və ön sözdə diqqət yetirilməli məqamlar var. Məsələn, H. Əfəndiyev Tehranda nəşr olunmuş kitabın üz qabığının altında yazırdı: "Ali Məhəmməd»in tarixi kitabı 1924-cü ildə ilk dəfə Tehran şəhərində çap olunmuşdur". Lakin H.Əfəndiyev kitaba yazdığı «Müqəddimə əvəzi» adlı ön sözündə isə qeyd edir ki, «bu kitab ilk dəfə 1922-ci ildə Tehranda fars dilində çapdan çıxır"(Behcət, 2010: 7). Bu məqalədə aparılan təhlillər və mülahizələr "Təşrih və mühakimə" əsərinin əlimizə çatan Türkiyə nəşri əsasındadır. Ədibin dünyagörüşünün və Şərq mədəniyyətinə dərindən bələdliyinin mühüm aspektləri burada öz əksini tapmışdır. Kitab 2003-cü ildə Cəfər Bəndidərya və Abbas Akyüz tərəfindən latın əlifbası ilə İstanbulda nəşr edilmişdir. Ön sözdə də qeyd olunur ki, kitabın orijinali eski Osmanlı dilində çap olunmuşdur. Buradan aydın olur ki, "Ali Məhəmmədin tarixində təşrih və mühakimə" əsərinin fars variantı ilə yanaşı, Osmanlı variantı da olmuşdur. Ön sözün müəlliflərinin qeydindən aydın olur ki, bu əsər Türkiyədə bir neçə dəfə çap olunmuşdur. Lakin oxucu kütləsi arasında böyük marağa səbəb olduğundan təkrar çapına ehtiyac duyulmuşdur.

Əsər bir sıra səviyyələrdə ciddi yanaşmaları və ədibin dünyagörüşünün üfüqi və şaquli mənzərəsini aydınlaşdırmaq, mənqəbələrin ümumi dinamikasını, mahiyyətində olanların nələrlə səciyyələnməsini aşkarlamaq baxımından funksional xarakteri ilə seçilir. Aydınlaşmalı olanlar isə bir neçə istiqamətdə özünü büruzə verir.

a) "Təşrih və mühakimə" əsəri ədibin dünyagörüşünü əks etdirmək baxımından oynadığı rolun müəyyənləşməsi üçün xüsusi aktuallıq kəsb edir;

b) XIX əsrin sonu və XX əsrin əvvəllərində islami düşüncənin, islam mədəniyyətinin bir dəyər olaraq aparıcı funksiyasını aydınlaşdırır;

c) ədibin yaradıcı üslubunun özünəməxsusluq və zənginlik imkanlarını aşkarlamaq baxımından önəmli rola malikdir;

ç) İslamın bir dəyər, düşüncə, mədəniyyət hadisəsi olaraq B.Behcət dünyagörüşündə funksional xarakterini aşkarlayır və s.

Müəllif kitabın faydalarından söz açaraq vurğulayır ki, "Al-i Muhammed Tarihinde Teşrih ve Muhakime" kitabı çok faydalı kitaplardan biridir. Bu kitap, Resululla-h'ın Ehlibeyti'nin (hepsine selâm olsun) hak üzere olduğunu ve mazlumiyetini ispatlamada anlaşılır ve akıcı bir beyanla yazılmış en güzel, kısa ve eşsiz bir eserdir"(Behcət, 2003). Burada mahiyyət təkcə dinin böyük şəxsiyyətlərinin diqqət önünə gətirilməsi ilə yekunlaşmır, həm də müəllifin, yəni Bəhlul Behcətin özü ilə əlaqədar maqamları da aydınlaşdırmaq baxımından mühüm əhəmiyyət daşıyır. Önsözdə müəllifin qısa tərcümeyi halını verən Əl Məraşi "Hocaları" bölümündə onun Şeyx Məhəmməd Şeyxülislamdan ve Şeyx Məhəmməd Kadızadədən və başqa fiqh alimlərindən dərs aldığı məlum olur. O da əlavə olunur ki, B.Behcət "Miet-u Yevm (Yüz Gün)", "Sıffin Vakıaları", "Mirasla İlgili Bir Risale", "İr-şad-ı Hamzevî", "Azerbaycan Eserleri", "Tevhid Kelimesinin Ha-rekeleri", "Demokrasî", "İtidal"və digər əsərlərin müəllifidir. Ancaq çox təəssüf ki, bu adlarını çəkdiyimiz əsərlərin aqibəti haqqında heç bir məlumat yoxdur.

Bu əsərin varlığı ədibin dünyagörüşü, dini-fəlsəfi, bədii-estetik təfəkkürünün milli mənsubluq meyarlarını təfərrüatı ilə təhlilə gətirməyə şərait yaradır. B.Behcət timsalında eyni zamanda mühitə daha konseptual yanaşmaq üçün ciddi önəm daşıyır. "Təşrih və mühakimə" əsəri günümüz islamşünasların, din alimlərinin müraciət etdiyi əvəzsiz mənbələrdəndir. Bunlardan biri də Mehmet Salih Geçitdir ki, öz "İslam Dünyasında Din-Siyaset İlişkisinin Tarihçesine genel bir bakış" adlı məqaləsində B. Behcət kimi dəyərli bir alimin fikirlərinə önəm vermişdir.

Əsərin təhlilində aşkarlanan məsələlərdən birisi ədibin məsələyə geniş aspektdə yanaşması və mətn/subyekt müstəvisində olanları paradiqmatik xarakteri ilə yazıya gətirmək istəyidir. "Təşrih və mühakimə"əsərini yazmaqla müəllif diqqəti mahiyyətə yönəldir, islam

aləminin parçalanmasına səbəb olan, islam ümməti arasına nifaq salan ixtilafları, qarşıdurmaları, onları yaradan səbəbləri aydınlaşdırmağa çalışır. “Bizce bu kitabımız, İslam ümmetinin fikir ve düşünce birliği için yegane merkezdir” (Behcət, 2003:4) deyərək öz kitabı haqqında fikir bildirir. Behcətə görə bütün dünya müsəlmanları islam aləminin vəhdətini istəyir. Lakin bu vəhdətə qarşı çıxanlar da var. Bəhlul Behcət qərb ölkələri ilə müsəlman ölkələrini müqayisə edir və yazır ki, qərbdə siyasi əqidə, Şərqdə, xüsusən müsəlman ölkələrində isə yalnız din və məzhəb insan şüuruna hakimdir. Çünki Avropada düşüncələrə hakim olan siyasətdir (Babayeva, 2015:135). XIX əsrin oyanışı timsalında prosesin tarixi inkişaf dinamikası B.Behcəti və həm də bütünlükdə ziyalı mühitini bura istiqamətləndirmişdi. Onun diqqət çəkmək istədiyi məqam odur ki, o dövr tarixçiləri, ədibləri, şairləri Hz. Məhəmməd peyğəmbərin, onun ailəsinin tarixinə önəm verməyərək, o dövrün hadisələrini işıqlandırmaq istəməmiş və ya işıqlandırmaqdan çəkinmişlər. Bəziləri isə yazdıqları əsərlərdə təəssübkeşliyi əldən verməmişlər. Məsələnin mahiyyətində islam intibahına, onun çevrələdiyi və formalaşdırdığı mədəniyyət sisteminə bir bütöv olaraq qiymət vermək gərəyi durur. “B.Behcətin bu əsəri yazmaqda məqsədi Peyğəmbər həzrətlərinin Əhli beytinin tarixini, düçar olduqları ədalətsizlikləri, haqsızlıqları bizlərə çatdırmaqdır. Əhli beyt dedikdə Hz. Əli və Rəsulullahın (s.a.s.) qızı - Hz. Əlinin həyat yoldaşı Fatimeyi Zəhra, onların pak övladları İmam Həsən, İmam Hüseyn və onların nəslindən olan doqquz imam nəzərdə tutulur” (Babayeva, 2017:12). Bunun əsasında isə islam mədəniyyətinin formalaşdırdığı mədəniyyət konsepsiyasını, onun fəlsəfi mahiyyətini, bədii-estetik sistemini açmaq dayanır. Ədib bunlara mühit və zaman müstəvisində yanaşmaqla hadisələrin gedişatına diqqət yetirmişdir.

Kitabı fars dilinə tərcümə edən Mehdi Ədibi «Başlanğıc» adlı ön sözdə yazırdı: «Bu kitab bütün batini və zahiri məziyyətlərə şamildir, insaflı adamlar üçün ən yaxşı dəlil və yol göstərəndir və hamını birlik nöqtəsinə çağırandır. Bəzi alimlərin, möhtərəm adamların və hamının yararlanması üçün kitabı farscaya çevirmək mənə qismət oldu. Mən də bu islami xidməti qəbul etdim və qiyamət günü üçün zahirə qıldım» (Behcət, 2010). Əsərlə bağlı professor C.Qasımovun da fikirləri maraq doğurur. Əsərdə alimlərin və tarixçilərin Peyğəmbərin ailəsinin taleyinə qarşı laqeydliyi, öz əsərlərində yer ayırmamasını hiddətlə qınayır: “Əvət ərzim budur ki, «Al Məhəmməd»in tarixini yazanlar tamam yazmamışlar. Və eləsi də olmuşdur ki, tam bir fəsad ilə yazmışlar. Və «Tarix Al Məhəmməd» və fəlakəti sərgüzəşti əhli beyt hər dövrdə bir çox qərəz və qəsd nəticəsi ilə pərdə dalında qalmışdır” (Qasımov, 2025:116). Bu təfsilat B.Behcətin özünə qədər bu istiqamətdə deyilənlərə münasibəti, əlavələri və yanaşma tərzi olaraq görünür. Daha doğrusu, bu tip kitabın yazılmasına gəlişin mahiyyətini aydınlaşdırır.

Lakin mənbələri araşdırarkən əhli-sünnə alimlərinin də əhli-beytin yaşamını işıqlandıran əsərlər yazdığının şahidi oluruq. Kitabın başqa bir yerində deyilir: “Al-i Məhəmməd»in (s) elmi, hədisləri, müctəhidliyi bir kənarda qalırdı. Onlar qəsdən xalqdan gizlədilirdi. Siyasət və məqsəd güdənlər iş başına dəvət edildi. «Al Məhəmməd»in (s) Baqiri, Sadiqi, Kazımi, Rizası zülm və əziyyətlə xalqdan aralandı. Davi-xilafət bəhanəsi ilə bir ovuc fatimə övladı bir-bir ortadan qaldırıldı” (Behcət,2010: s.26). Bütün bunlar eyni zamanda ədəbiyyatşünas, din tarixçisinin baş verənləri elmi-nəzəri, tarixi-fəlsəfi aspektdən qiymətləndirməsidir. O, belə qənaətə gəlmişdir ki, İslam alimləri və tarixçiləri bir sıra mövzularda məsələn, Səlcuqlular, Osmanoğulları, Şamanlılar, Büveyhoğullarının tarixi haqqında əsərlər yazmışlar, Məhəmmədoğulları tarixindən bəhs edən iri həcmli əsərlər qələmə almamışlar, rəvayət, əhvalat, hekayət səviyyəsində yaddaşlarda yaşamışdır. İbn-i Haldun, İbn-i Esir, İbn-i Hulləkan, Məsudî, Təbəri kimi məşhur alimləri buna misal göstərir. İslam tarixindən məlumdur ki, Məhəmməd Peyğəmbərin vəfatından sonra istər bəni Ümeyyə, istərsə də Abbasilər arasında hakimiyyət iddiası meydana gəlmişdi. Məsələn, Ümeyyəoğullarının (bəni üməyya) hakimiyyəti dönəmində olduğu kimi, Abbasoğullarının (bəni Abbas) dövründə də Məhəmmədoğulları ailəsinə olan soyuq münasibət, zülm və işgəncələrə məruz qalma

halları və s. vardı. “Al-i Muhammed (a.s) hakkında konuşmak bir kenara dursun, hatta onların adlarının anılmasına bile cesaret edilememiş, Al-i Muhammed'in (a.s) uleması, muhaddis ve müçtehidi bir kenara bırakılmış, kasıtlı olarak halktan uzaklaştırılmışlardır” (Behcet,2003: s.6). Bütün bunlar bir üləma, din tarixinə bələd şəxs kimi B.Behcəti düşündürmüş və bu əsəri yazmaqla o, sanki yaranmış bu boşluğu aradan qaldırmağa çalışmışdır. Onun “Məhəmmədin ailəsinin tarixi”, eləcə də dini dəyərlərimizə dair yazdığı digər əsərləri din tariximizi öyrənmək baxımından mükəmməl bir mənbədir. Müəllifin bu istiqamətdə apardığı tədqiqatlar aydın şəkildə göstərir ki, B.Behcət adi qazilərdən olmamış, dini dəyərlərimizi fundamental şəkildə öyrənən və öyrədən, eyni zamanda müdafiə və mühafizə edən yaradıcı din xadimi olmuşdur. Müəllifi narahat edən məqamlardan biri də budur ki, islam tarixçiləri Müaviyə Əbu-Sufyan, Əbu-Hüreyrə və b. sahabələrin nə qədər çirkin əməllər törətdiklərinə baxmayaraq onları hörmətlə anarlar. Sırf sahabə olduqları üçün onların cinayətlərinə göz yumurlar.“Tarihçilerin en göze çarpan kusurlarından biri de şudur ki, "büyük şahsiyetlerde kusur bulmak kusurdur"(Behcet, 2003: 8) düşüncəsi dünya tarixşünaslığında hakim ideologiya idi. B.Behcət dönə-dönə tarixcilərin haqq-ədaləti görməzdən gəldiklərini vurğulayır. “Güc və hakimiyyət kimin əlindədirsə, haqq-ədalət də onun tərəfindədir” qənaətini diqqət önünə gətirir. Dediklərini isə İslam tarixində mövcud faktlara söyləyərək sübuta yetirməyə çalışmışdır. Bu baxımdan B.Behcətin bu fikri bu günümzlə səsləşir. Hər zaman haqq ədalət axtarışında olan alim öz sözünü deməkdən heç vaxt çəkinməmişdir. Bu məsələ ilə bağlı islam tarixçisi və alimi Ömər Nəsəfi “Akaid” adlı kitabında yazır: “Sahabə ancaq hayırla yad edilir “Bu konuda Peygamberimiz (s.a.a.) şöyle buyurur. “Ashabıma kötü söz söylemeyiniz”. Bəhlul Behcət subyektiv fikirləri ilə islam tarixçilərinin qənaətlərinə qarşı çıxmış olur. Bu fikirlərdən biri haqqında minlərlə hədis rəvayət edilən Peyğəmbərin sahabələrdən biri Ebu Hüreyrə ilə bağlıdır. Bəhlul Behcət Ebu Hüreyrə haqqında insanlarda çaşqınlıq yaradan fikirlər söyləyir. O, zülüm ve haqsızlığa səssiz qalıb, Müaviyənin tərəfində yer almışdır. Bu məsələyə bizim münasibətimiz belədir. Ümumiyyətlə humanitar sahədə heç bir subyekt, obyekt və ya hadisə haqqında vahid bir mövqe yoxdur. Bu fikri İslam tarixinə də aid etmək olar. İslam tarixçiləri və din alimləri Rəsulullahın əhli beyti və sahabələri haqqında fərqli mövqe nümayiş etdirmişlər. Günümüzün islam tarixçiləri və tədqiqatçıları da fərqli mülahizələrlə çıxış edirlər və bu kimi fikir müxtəlifliklərinin səbəbini məzhəb ayrılığında görürlər.

Görkəmli ədəbiyyatşünas, islam tarixçisi müxtəlif kontekstlərdə təhlillər aparır, tarixi faktlardan ayə və hədislərə qədər deyilənlərə həssaslıq göstərir. Ümumiyyətlə, islam tarixi, islam mədəniyyəti və fəlsəfəsi (buraya şübhəsiz ədəbiyyatı da əlavə olunur) öz fundamental mənzərəsi ilə mükəmməl təsəvvür formalaşdırır.

Görkəmli islam tarixçisinin dini aspektli əsərlərində mühüm xətlərdən birini məzhəb ayrılıqlarına gətirdiyi mövqe aydınlığı təşkil edir. O, islam ümmətinin ən önəmli problemi olan sünnü-şiə məsələsinə də toxunaraq onlar arasındakı fərqi ortaya qoymuşdur. Zaman keçdikcə islam tarixində müsəlmanlar arasında ixtilaflar yaranır, bir sıra fikir ayrılıqları meydana çıxır. Bu fikir ayrılıqları siyasi qruplaşmalara, dini ayrıseçkiliyə dolayısı ilə İslam dinində yeni məzhəblərin yaranmasına səbəb oldu. Bununla da sünnü, şiə təriqətləri meydana gəldi. Şiə sözünün ərəbcə mənası “tərəfdar” deməkdir. Hz. Əli tərəfdarları özlərini şiə adlandırırdılar. Şiələrin inancına görə, Hz. Peyğəmbərdən sonra imam, yəni xəlifə olması gərəkən şəxs məhz Hz. Əli olmalı və imamət də onun soyu ilə davam etməlidir.

“Sünnü” sözünün ərəbcədən tərcüməsi “yol” deməkdir, yəni Hz. Məhəmməd Peyğəmbərin yoluna sadiq olanlar. Sünnü məzhəbindən olanlar Hz. Əlidən öncə gələn ilk üç xəlifəyə inanaraq onların xəlifəliyini qəbul etmişlər. Şiələr isə əksini iddia edərək, xilafətin Hz. Əli və onun soyundan davam etdiyini düşünürlər. B.Behcət bu məsələyə öz münasibətini bildirir və əlavə edir ki, “şiələr Hz. Əliyə və onun tarixinə önəm verdiyi halda, sünnülər isə Hz. Əliyə, onun soyuna, tarixinə biganəlik göstərmişlər. Behcət bu iki təriqət arasında önəmli

bir fərqin olmadığını deyərək onları bir vəhdət halında birləşməyə çağırır" (Babayeva, 2015:138). Etnosiçi münasibətlər zəminində baş verənlər sonrakı dövrün ilahiyyatçıları, o cümlədən Bəhlul Əfəndi tərəfindən zərurət olaraq təhlilə gətirilir və məkan-zaman sistemində daha ciddi yanaşmaların gərəkliyi qənaətinə gəlir.

Əsərdə ən maraqlı məsələlərdən biri də Hz. Əlinin fəziləti, onun digər imamlardan üstünlüyü məsələsidir. Burada da Bəhlul Behcət maraqlı mülahizələr irəli sürür. Belə ki, sünnü alimləri ilə şiə alimləri arasında belə bir fikir ayrılığı mövcuddur. İmamların ən fəzilətlisi Hz. Əbubəkr, ondan sonra Hz. Ömər, sonra Hz. Osman və daha sonra Hz. Əlidir. Lakin Şiə alimləri isə Hz. Əlinin digər üç imamdan daha üstün olduğuna inanırlar. Bəhlul Behcət isə əhli-sünnət alimlərindən olmasına baxmayaraq onların bu fikri ilə razılaşmır. "Qadir-i hum", "Mənzilət", "Tayr", "İlim", "Darbe"hədislərin Hz. Əlinin fəzilətini isbatlayan hədislər olduğunu bildirir. Bununla da Bəhlul Behcət Hz Əlinin dördüncü xəlifə yox Rəsulullhdan (s.a.s.) sonra ilk xəlifə və imam olduğunu iddia edir. O yazır ki, digər üç xəlifənin xilafət başına keçməsi qeyri-qanuni yolla baş vermişdir və bunu belə əsaslandırır ki, Hz. Əbubəkirin xəlifə seçilməsi zamanı icmada olanların sayı az olmuşdur, ikinci xəlifə birinci xəlifənin vəsiyyətinə əsasən xəlifə olmuşdur ki, bu təyin etmədir, 3-cü xəlifənin seçimi isə altı nəfərlik bir şuraya həvalə edilmişdir. İmam seçimi ilə bağlı islam alimləri arasında müxtəlif fikir ayrılıqları olmuş və yuxarıda verilən fikirlərin əksini söyləmişlər. Bütün bunlar sonrakı dövrlərdə ziddiyyətlərə yol açmışdır. Ümumiyyətlə, din tarixində "Hz. Məhəmməd Peyğəmbərdən sonra xəlifəlik qanuni olaraq kimin haqqı idi?", " kimlər imam hesab olunur?" "imamların ən fəzilətlisi kimdir?" və s. suallarına cavab verən islam tarixçiləri yekdil fikir söyləmir. Bunun da kökündə məhz Bəhlul Behcətin də söylədiyi kimi sünnü və şiə təriqət ayrılığı dayanır. Əsərin sonunda Bəhlul Behcət Hz. Əlidən sonra xəlifə və imam olan on bir nəfərin ardıcıllıqla həyatını, onların başlarına gələn müsibətləri, haqsızlıqları qələmə almışdır. Lakin müəllifin təəssübkeşlikdən yaranan nöqsanlarını nəzərə almasaq deyə bilərik ki, "Əsər tamamilə şiə düşüncəsi ilə yazılsa da, subyektiv fikirlərə daha geniş yer verilsə də, İslam tarixini, yaradılışını, yayılmasını, bu məqsədlə müqəddəs insanların apardığı mübarizələri öyrənmək, təhlil etmək baxımından olduqca əhəmiyyətlidir. Bu əsər B.Behcətin həm dinşünas alim, həm də bir tarixçi kimi dəyərini artırır. Onun şərh və mühakimələrini oxuduqca yetəri qədər dini və tarixi biliklərə sahib olduğu qənaətinə gəlirik" (Babayeva, 2019: s.609). Dini mövzu üzərində köklənmiş "Təşrih və mühakimə" din tarixini və orada baş verənləri öyrənmək kontekstində mükəmməl bir təsəvvür yaradır və Bəhlul Əfəndinin bir tərəfdən düşüncə tipini dinşünaslıq prizmasından ortaya qoyursa, digər istiqamətdə yaradıcı üslubunu ehtiva etmək gücü ilə maraq doğurur.

## 2. İslam Tarixindən Qeydlər

Görkəmli ədibin işıq üzü görməyən, arxivdə saxlanılan elmi əsərlərindən biri də "Azərbaycanda təriqətlər" və "İslam tarixindən qeydlər" adlı əsərləridir. Güman olunur ki, ikinci əsərin adı arxiv tərəfindən verilmiş addır. Əlyazma variantında əsər müqəddimə ilə başlayır. Müqəddimə adlandırılan birinci hissədə alim Panislamizm, onun mahiyyəti və tarixi haqqında müfəssəl məlumat verir. Əsərin ruhundan müəyyən etmək olur ki, araşdırma sovetlər dönəmində, bolşevik-kommunist ideologiyasının vahiməsi altında yazılmışdır. Burada müəllifin istinadları, sosialistlərə, K.Marksın "Kommunist manifesti" əsərinə müraciəti sırf ideoloji sistemin basqısını faktlaşdırır. Müəllifin əsas məqsədi panislamizmin ümumi simasını və ümumi mahiyyətini aydınlaşdırmaqdır.

Ədibin bir tədqiqatçı kimi zaman və məkan qatları üzərində apardığı müşahidələr, məkanın mədəniyyət tipi olaraq formalaşdırdığı təsəvvür, ədəbiyyatşünas, tarixçi, islamşünas olaraq zənginlik imkanları təhlillərin elmi məzmununu... 

baxımından fundamental xarakterlidir və Azərbaycan səviyyəsində gedən prosesləri sərgiləmək imkanları ilə mükəmməl təsir bağışlayır.

“İslam tarixindən qeydlər” əsəri tarixi dinamikanın ümumi mənzərəsini əhatələmək gücü ilə səciyyələnir. Əsərin mündəricatındakı başlıqlar bütünlükdə mahiyyəti ortaya qoyur. Məsələn, “Panislamizmin zühuru zamanlarında islam aləminin siyasi və iqtisadi vəziyyəti”, “İntibah”, “Panislamizm məfkurəsi və təşkilatı”, “Rusiya panislamistlərinin 1905-1907-ci illərdəki fəaliyyəti”, “Panislamistlərin ideologiyası”, “Panislamizm, nasionalizm və sosiolizm mübarizəsi” başlıqları altında təhlilini tapan məsələlər bütünlükdə Azərbaycan timsalında islam mədəniyyətinin tarixi dinamikasını ortaya qoyur. Baş verənlər və siyasi ideologiyaların daha çox qabartmağa çalışdıqları timsalında yanlışlıqlara yol açsa da, İslam mədəniyyətinin formalaşdırdığı təsəvvür və ortaya qoyduğu konsepsiya mükəmməlliyi ilə ortadadır. B.Behcətin də məhz bu müstəvidə təhlillərə üstünlük verməsi öz qaynağını sırf reallıqdan alır. Bu əsərdən avropa kapitalının İslam ölkələrini necə özünə tabe etdiyini oxuyuruq.

“Azərbaycanda təriqətlər” və “İslam tarixindən qeydlər” əsərləri məzmun xətlərinin təhlili və aydınlığı baxımından ədibin dünyagörüşünün ümumi mahiyyətini göstərir. Onu da əlavə edək ki, “Azərbaycanda təriqətlər” özlüyündə ədibin dövrü üçün nə qədər aktual idisə, müasir şərait üçün də bir o qədər önəmlidir və böyük məntiqi əhəmiyyət daşıyır. Çünki bu əsər əyani şəkildə sübut edir ki, vaxtilə islam dinində nəqşibəndilik, xəlvətilik, hürufilik, vəhdəti-vücud, şeyxilik, kərimnəmanilik, əliallahılıq, babilik-bəhailik kimi təriqətlər olmuş, amma indi unudulmuşdur. Ədib xüsusi həssaslıqla məsələlərə yanaşır və islamı iki tirəyə bölən şiəlik və sünniliklə bağlı qənaətlərini ortaya qoyur və eyni zamanda vahid islamdan, islami birlikdən və bu istiqamətdə işlərin aparılması gərəkliyindən danışmaqla diqqəti mahiyyətə yönəltməyə çalışır. Əsər həcmcə o qədər də böyük olmasa da, məzmun və mündəricə baxımından xüsusi əhəmiyyəti var. Müəllifin “dini-təsəvvüf” və “qeyri-şərii” təriqətlər deyə apardığı bölgü və real elmi fakt və təhlillər əsasında ortaya qoyduğu qənaətlər məntiqiliyi ilə dolğun təsəvvür formalaşdırır. B.Behcət Təsəvvüf təriqətləri sırasına nəqşbəndilik, xəlvətilik, hürufilik, vəhdəti-vucud, Qeyri-şərii təriqətlər sırasına abbasilik, batilik təriqətlərini aid edir (Behcət). Məqalədə diqqəti cəlb edən məqamlardan birisi görkəmli ədibin hürufiliklə bağlı gəldiyi qənaətlərdir. O, hürufilik təriqəti haqqında bəhs edərkən bu təriqətin “xaric əz şəriət” xasiyyəti daşımasını təsdiq edərək yazır:“...hürufilər ən əvvəl islam şəriətinin əsası olan Quranı şəriətçilərin əlində dəstaviz olmaqdan çıxarmaq üçün onun əsas mənalarını şəriətçilərcə qeyri-mətlub məfumlara çevirirlər və Quranın batini mənaları olduğunu isbat etməklə ortada olan zahir ehkamı heç dərəcəsinə gətirirlər ki, bununla da, hər şeyin halal olmasını düşünürlər. Bu xüsusda, “Tarixi-islam” müəllifi Əhməd Hələmi deyir: “Məsləki-hürufidəki qarışıqlıq belə ona fazla bir cazibə vermiş və hər kəsi məclub etmişdir. Təkalifi heçə çıxarması bu məzhəbin avam arasında və pək adi bir şəkildə intişarına səbəb olmuşdur” (Behcət). . Göründüyü kimi, bütün bunlar ədibin zəngin yaradıcılığında mövcud istiqamətlərin mükəmməliyi təsəvvürünü formalaşdırmaqla mühit və şəxsiyyət timsalında gedən prosesin mahiyyətini aydınlaşdırmaq üçün əsas olur.

Bəzi mənbələrin verdiyi məlumata görə Bəhlul Behcət müqəddəs kitabımız olan Quranı da dilimizə ilk tərcümə edənlərdəndir. Lakin belə bir tərcümə günümüzə qədər gəlib çıxmamışdır. Düşünürük ki, ərəb dilini mükəmməl bilən bir dinşünas alimin belə bir tərcümə etməsi təbii şübhə doğurmamalıdır.

**Nəticə**

Bəhlul Behcət bir dinşünas alim kimi tədqiq olundu onun dini səpkidə yazdığı əsərləri təhlil olunaraq onun dünyagörüşünü ortaya qoydu. Burdan belə nəticəyə gəlmək olar ki, onun repressiyaya məruz qalma səbəblərindən biri  də din təəssübkeşi olması, İslamı təbliğ etməsi olmuşdur. Düzdür bəzi məqamlarda Bəhlul əfəndi özü də dini əqidəsində qeyri-müəyyənlik yaşasa da, ümumilikdə isə İslamı və onun müqəddəs kitabı olan Quranı mükəmməlləşməyə,

adilləşməyə gedən yolda olduqca əvəzsiz bir bələdçi hesab edirdi. Bütün bunlar ədəbiyyat tariximizdə Bəhlul Behcətin din almi kimi rolunu bizə göstərdi.

## ƏDƏBİYYAT

Babayeva, Hicran (2015), Bəhlul Behcət və onun "təşrih və mühakimə" əsəri Bakı,"Dədə Qorqud"elmi-ədəbi toplu, S.3, s.132-139.

Babayeva, Hicran (2019), "Bəhlul Behcətin Təşrih və mühakimə isimli əsərində tarixi həqiqətlərin əksi", II Uluslararası İnsan ve Toplum Bilimleri Araştırmaları Kongresi, İstanbul: step ajans, 4-6 oktyabr, s.609-616.

Behcet, Bəhlul (2003), "Muhammedoğulları tarihində teşrih ve mühakime" İstanbul: Kevser, http://www.islamidavet.com/kutuphane/wpcontent/uploads/2015/05/Te%C5%9Frih-ve-Muhakeme.pdf

Behcət, Bəhlul Azərbaycanda təriqətlər və İslam tarixindən qeydlər // S. Mümtaz adına Ədəbiyyat və incəsənət arxivi, Fond №161, siyahı №1, s.v.2

Behcət, Bəhlul (2010), "Ali Məhəmmədin tarixi" Bakı.

Geçit, Mehmet. "İslam Dünyasında din-siyaset ilişkisinin tarihçesine genel bir bakış" Universal Journal of Theology Volume I, Issue I, 31-50 https://dergipark.org.tr/tr/download/article– file/264318

Бабаева , Хиджран (2017), «Религиозно-нравственные взгляды Бахлула Бехчета» Ukraina:Науковый віснік міжнародного гуманітарного університету, № 29/2. – с.11-14